**Qobustanda fəaliyyəti məhdudlaşdırılan kafedə aşkarlanan nöqsanlara dair məlumat**

**(4 iyul 2023)**

Agentlik əməkdaşları tərəfindən Qobustan rayonu, Cəngi kəndində fəaliyyət göstərən fiziki şəxs Eyyubov Mürşüd Səlim oğluna məxsus “Səbuhi” kafesində keçirilmiş yoxlama zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinin pozulduğu aşkar olunub. Belə ki, işçi heyətin ilkin və dövri tibbi müayinədən keçmədiyi və xüsusi geyimlə təchiz edilmədiyi, müvafiq dezinfeksiya işlərinin aparılmadığı, döşəmənin tamlığının pozulduğu, döşəmə, tavan və divarların asan yuyulub təmizlənə bilən, suya və dezinfeksiyaedici maddələrin təsirinə davamlı materiallarla üzlənmədiyi, həmçinin texnoloji ardıcıllıq prinsipinə əməl olunmadığı, havalandırma sisteminin quraşdırılmadığı, pəncərələrin qoruyucu tor örtüklə üzlənmədiyi müəyyən edilib. Aşkarlanmış nöqsanlarla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib, müəssisənin fəaliyyəti məhdudlaşdırılıb.